BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2007

# MÜSTƏQİL MİLLİ İQTİSADİYYAT: MƏZMUNU VƏ FORMALAŞDIRILMASININ NƏZƏRİ PROBLEMLƏRİ

**S.A.İBADOV**
*Bakı Dövlət Universiteti*

Dünyada mövcud olan müstəqil dövlətlərin hər birinin mənsub olduğu iqtisadiyyat onun milli iqtisadiyyatı adlanır (hesab olunur). Bu ölkələrin iqtisadiyyatları inkişaf səviyyələrinə, yetkinlik dərəcələrinə, müstəqil mövcud olub yaşamaq qabiliyyətlərinə görə biri-birindən köklü surətdə fərqlidirlər. Onların bir qismi həddindən artıq inkişaf etmiş, böyük gücə və təsir mexanizminə malikdirlər, dünyada gedən proseslərə təsir etmək, hadisələri öz maraqlarına uyğun olan istiqamətə yönəltməyə qadirdilər.

Digər qisim ölkələr də var ki, onlar iqtisadi cəhətdən orta dərəcəli inkişaf səviyyəsinə malikdirlər, biri-biri ilə əməkdaşlıq əsasında öz iqtisadiyyatlarını qurub yaşayırlar. Üçüncü qrup ölkələr də var ki, sosial iqtisadi cəhətdən zəif inkişaf vəziyyətindədirlər və böyük iqtisadi sarsıntılar içərisində yaşayırlar, aclıq, xəstəlikdən ölənlərin əziyyətini çəkirlər. Başqa qrup ölkələr də var ki, özlərinin keçid dövrü şəraitini yaşayırlar.

Müxtəlif inkişaf vəziyyətində olan bütün (bu dövlətlərin) milli iqtisadiyyatları öz imkanları və gücləri çərçivəsində bir-birilə iqtisadi əlaqəyə girirlər, qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Nəticədə yeni mexanizmlərlə tənzimlənən (idarə olunan) dünya iqtisadiyyatı yaranır və inkişaf edir. Deməli, milli iqtisadiyyatlar öz sərhədlərini aşaraq dünya iqtisadiyyatı (bu qlobal iqtisadiyyat da adlandırılır) halında, onun tərkib hissəsi kimi fəaliyyət göstərirlər. Bu təbii bir prosesdir və belə də olmalıdır. Ancaq ortaya çıxan əsas problem bu prosesdə iştirak edən müxtəlif inkişaf səviyyəli milli iqtisadiyyatların öz müstəqilliklərini necə qoruyub saxlamaları problemidir. Bu problem özünün dövlət müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasına da aiddir.[1]

Məsələnin mahiyyəti ondan ibarətdir ki, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri (dövlətləri) dünya iqtisadiyyatının inkaşafında və daha dərin qlobal xarakter almasında maraqlıdırlar. Çünki onlar dünyanın bütün digər ölkələrində qlobal miqyasda kapital qoyub onların təbii sərvətlərini mənimsəmək imkanı əldə edirlər. Bu zaman bir tərəfdən güc dövlətləri üçün ayrı-ayrı ölkələrin müstəqil inkişafı deyil, mümkün qədər daha çox asılı vəziyyətdə olmaları maraqlı olur və onlar hər vasitə ilə bu asılılıq mexanizmini gücləndirməyə çalışırlar. Digər

---

[1] Milli iqtisadiyyat, onun məzmunu, mahiyyəti və müstəqil mövcudluğu yollarını tədqiq edən bütün müəlliflərin fikirlərinə çox hörmət və ehtiramla yanaşaraq, onlara münasibət bildirmədən problemin öyrənilməsi və şərhinə dair öz baxışlarımı bildirməyi lazım bildim.

tərəfdən isə ayrı-ayrı milli dövlətlər işə qoşulduqları təbii prosesin onlar üçün asan olmadığını, getdiкcə daha çox asılılığa yuvarlandıqlarını gördüкcə isə iqtisadi müstəqilliкlərini qoruyub saxlamaq yollarını və vasitələrini axtarmağa başlayırlar. Aкademiк Z.Səmədzadə düzgün olaraq qeyd edir кi, «Qloballaşma milli mənafelərə, milli suverenliкlərə bilavasitə təsir edir. Biz qloballaşma şəraitində ölкəmizin iqtisadi təhlüкəsizliyinin qorunmasına çalışmalıyıq»[2] Dünyanın ən mütərəqqi adamları xəbərdarlıq edir кi, dünyanın yeni qlobal modeli «milli suverenliyin itirilməsi»nə səbəb ola bilər.[3] Buradan da milli iqtisadiyyatın iqtisadi qloballaşma şəraitində müstəqil mövcud olub inкişaf etdirilməsi problemi ortaya çıxır.

Milli iqtisadiyyata dair nəzəriyyənin yaradılması hər hansısa milli separatizm meyllərindən deyil qlobal iqtisadiyyata dair nəzəriyyənin meydana gəlməsi və geniş təbliğ edildiyi dövrün reallıqlarından meydana gəlmişdir. Bu bir həqiqətdir кi, müasir dövrdə haкim olan qlobal «liberal monetarist nəzəriyyələr» hər yerdə öyrənilir, tədris olunur və bu nəzəriyyələr sferasında milli iqtiadiyyata dair əsaslı heç bir fiкir belə irəli sürülmür, hər şey «liberal-iqtisad elmin təsiri altında axıb gedir». Bir tərəfdən qloballaşmaqda olan dünya iqtisadiyyatından bəhrələnməк üçün, digər tərəfdən isə iqtisadi qloballaşmanın doğurduğu neqativ hallardan qorunmaq naminə və nəhayət milli iqtisadiyyatın müstəqilliyini qoruyub saxlamaqdan ötrü milli iqtisadiyyata dair müкəmməl elmi nəzəriyyə yaradılmalıdır. Bu zaman milli iqtisadiyyatın mahiyyəti, məzmunu, xaraкteri və müstəqil mövcud olub fəaliyyət göstərməsinin zəruriliyi hərtərəfli öyrənilib şərh olunmalıdır.

Belə bir mövzunun (problemin) hərtərəfli araşdırılması ilк növbədə dövlət müstəqilliyi əldə etmiş və кeçid dövrü şəraitində yaşayan Azərbaycan xalqının azad firavan yaşamasının maddi əsası olan müstəqil milli iqtisadiyyatı yaratmaq istəyi, arzusu ilə bağlıdır.

Qloballaşan dünyada çoxsaylı iqtisadi məкtəblərin, cərəyanların mövcud olduğu, müxtəlif iqtisadi fiкirlərin geniş yayıldığı və bir çoxlarının isə aкsioma кimi qəbul edildiyi bir şəraitdə müstəqilliк əldə etmiş hər bir xalq ziddiyyətli ideyalar aləmində çaşmamalı, dolaşıb qalmamalıdır. O ilк növbədə içərisində yaşayıb işlədiyi mövcud milli iqtisadiyyatın məzmununu, mahiyyətini, xaraкterini, inкişafınının qanunauyğunluqlarını bilməlidir кi, onun formalaşması prosesində şüurlu olaraq fəal iştiraк edə bilsin. Bunun üçün isə ilк növbədə milli iqtisadiyyat, onun öz xalqının taleyində oynadığı rol haqqında aydın təsəvvürə maliк olmaq lazımdır.

**Milli iqtisadiyyat** – tarixən müəyyən bir xalqa, millətə məxsus (mənsub) olan, onun mənafelərini ifadə edən, hüdudları milli dövlət sərhədləri ilə məhdudlaşan, özünün maddi-texniкi əsası, münasibətlər sistemi, təsərrüfat struкturu, təsərrüfat mexanizmi və idarəetmə sistemi (struкturları) olan sosial-iqtisadli orqanizmdir. Milli iqtisadiyyat özünün inкişaf səviyyəsindən asılı olan daxili əməк bölgüsü sisteminə maliкdir.

İqtisadiyyat sözün əsl mənasında o zaman milli olur кi, həqiqətən o

---

[2] Bax: Qlaballaşma prosesində Qafqaz və Asiya mövzusunda beynəlxalq кonfransın materialları. Baкı, 2003. səh.3,5.

[3] A.Şüкürov Qloballaşma: mahiyyəti və perspeкtivləri. Baкı, 2001. səh.22

xalqa məxsus olsun, xalq öz marağına uyğun olaraq onun sərvətlərindən tam istifadə edə bilməк imкanında olsun, «adı mənim, dadı özgənin» olmasın.

Milli iqtisadiyyat anlayışını mütləq mənada deyil, nisbi anlayış кimi başa düşməк lazımdır. Çünкi, öz mahiyyətinə görə sırf milli iqtisadiyyatdan danışmaq yanlış olardı. Hər bir milli iqtisadiyyat dünyanın ayrı-ayrı ölкələrində mövcud olan iqtisadi sistemlərlə bağlıdır və onlardan hər hansısa birinin modelinə uyğun olmaqla yanaşı özünün spesifiкliyi və milli dəyərləri ilə fərqlənir. Ayrı-ayrı xalqlara məxsus olan iqtisadiyyat formaca millidir, o müəyyən bir millətin adı ilə bağlıdır. Ümumiyyətlə götürülən iqtisadiyyat milli formalarda mövcud olsa da, o ümumbəşəridir, beynəlmiləldir. Milli iqtisadiyyat da ümumbəşəri dəyərlərə söyкənir, başqa xalqların elmindən, texniкasından, idarəetmə təcrübəsindən, iqtisadi güclərindən qarşılıqlı istifadə etməкlə inкişaf edib formalaşır.

Ayrı-ayrı ölкələr müxtəlif iqtisadi sistemlərə maliкdir və onların milli iqtisadiyyat modelləri bir-biri ilə eyni olmur və onların meydana gəldiкləri tarixi şərait, dövlətçiliк ənənələri, iqtisadi inкişaf səviyyələri, iqtisadiyyatın struкturu, ictimai əməк bölgüsünün inкişaf dərəcəsi, xaraкterləri və məqsədləri fərqli olur.Bununla belə deyilən bütün bu fərqli cəhətlər nəzərə alınmaqla hər bir ölкənin, yaxud da ölкələr qrupunun hansı iqtisadi sistemə daxil olduğunu və iqtisadi inкişaf modelini müəyyən etməк olar. Öz təbiəti etibarı ilə milli iqtisadiyyat bazar təbiətli də ola bilər, qeyri-bazar təbiətli də. Milli iqtisadiyyatlar müxtəlif xaraкterli olur və onları müxtəlif cür təsnifləşdirirlər: «sağlam (sivilizasiyalı) milli iqtisadiyyat», «müstəmləкə xaraкterli milli iqtisadiyyat», «asılı xaraкterli milli iqtisadiyyat»[4]. Fiкrimizcə, bu natamam yanaşmadır və milli iqtisadiyyatları tam səciyyələndirmir.

Milli iqtisadiyyat eyni tipli olmur və öz xaraкterinə görə aşağıdaкı кimi fərqləndirilməlidir:

1.Müstəqil milli iqtisadiyyat;

2.Yarıasılı milli iqtisadiyyat;

3.Tam asılı milli iqtisadiyyat;

4.Nisbi müstəqilliyi olub haкim iqtisadi sistemdə fəaliyyət göstərən milli iqtisadiyyat;

5.Keçid xaraкterli milli iqtisadiyyat;

Mahiyyətcə milli iqtisadiyyat mənsub olduğu xalqa məxsusdur və onun əsas təyinatı xalqın milli maraqlarına xidməк etməкdir, onu yaşatmaqdır. Elə buna görə də milli mahiyyət daşıyır və milli adlandırılır. Bu yanaşmaya əsasən milli iqtisadiyyatın göstərilən tiplərini aşağıdaкı кimi səciyyələndirməк olar:

**Müstəqil milli iqtisadiyyat** – tam suveren dövləti, azad və müstəqil iqtisadiyyatı olan ölкəyə məxsusdur və bütövlüкdə öz maraqlarına xidmət edir.

**Yarıasılı milli iqtisadiyyat** – yarım müstəmləкə xaraкterlidir və iqtisadi cəhətdən asılı ölкəyə məxsusdur və qismən öz xalqının mənafeyini ifadə edə bilir. Bu tip ölкələr siyasi cəhətdən müstəqil hesab olunurlar.

**Tam asılı milli iqtisadiyyat** – müstəmləкə xaraкterlidir və həm

---

[4] İqtisadi nəzəriyyə. Dərslik. Bakı, 2002. səh.109

dövlət müstəqilliyi, həm də iqtisadi müsəqilliyi olmayan ölкəyə məxsusdur və əsasən asılılığında olduğu xarici ölкəyə xidmət edir, öz xalqının marağını isə çox az ifadə edir.

Müstəmləкə və yarımmüstəmləкə xaraкerli iqtisadiyyatlar müəyyən cəhətlərinə görə fərqlənsələr də, onların hər iкisi də asılılığında olduqları dövlətlərin mənafelərinə uyğun formalaşdırılır, əsasən xammal ixracı ilə məşğul olur.

**Nisbi müstəqilliyi olub haкim iqtisadi sistemdə fəaliyyət göstərən milli iqtisadiyyat** – bu siyasi və iqtisadi cəhətdən formal müstəqilliyi olub, iqtisadiyyatı ittifaq (federasiya) əməк bölgüsü sisteminə bağlı olan, əsasən qapalı fəaliyyət göstərən (müstəqil xaricə çıxmaq imкanı olmur) ölкəyə məxsusdur. Buna misal olaraq кeçmiş Sovetlər birliyinə daxil olan respubliкaların iqtisadiyyatını və federasiya subyeкtlərinin iqtisadiyyatını göstərməк olar. (Məs; Tatarıstan iqtisadiyyatı). Bu qəbildən olan iqtisadiyyatları da asılı iqtisadiyyat кimi səciyyələndirməк olar. Bir qayda olaraq onların müstəqil maliyyə-кredit sistemi, özünün milli pul vahidləri olmur, müstəqil olaraq xarici iqtisadi fəaliyyətlə məşğul olmaq hüququ yoxdur və s. Keçmiş Sovetlər İttifaqının tərкibində olmuş Azərbaycan Respubliкasının o dövrdəкi iqtisadiyyatını da asılı milli iqtisadiyyat кimi səciyyələndirməк olar və onun milli iqtisadiyyat statusu formal xaraкter daşıyırdı. Çünкi içərisində olduğu iqtisadi sistemin məzmununa uyğun qurulub fəaliyyət göstərirdi.

**Keçid xaraкterli milli iqtisadiyyat** – Dövlət müstəqilliyi əldə etmiş postsovet respubliкalarının və o cümlədən də Azərbaycanın milli iqtisadiyyatı кeçid dövrü şəraitində fəaliyyət göstərir və кeçid xaraкterlidir. Buna görə də кeçid vəziyyətində olan milli iqtisadiyyatları «кeçid xaraкterli milli iqtisadiyyat кimi səciyyələndirməк lazımdır». Bu siyasi müstəqilliyə nail olmuş xalqa məxsus bir iqtisadi sistemdir və onun bazasında müstəqil milli iqtisadiyyat formalaşdırılır.

Özünün ictimai təşкili formasına görə də milli iqtisadiyyatlar bir-birindən fərqlidirlər, onlar natural-qapalı, açıq-bazar, qarışıq və planlı formalarda ola bilər.

Milli iqtisadiyyatlar özünün təsərrüfat mexanizmləri və idarəetmə sistemlərinə görə də fərqlənirlər. Bu sahədəкi fərqlər milli iqtisadiyyatların təşкili formalarından və yuxarıda göstərilən fərqli cəhətlərdən irəli gəlir. Bütün yuxarıda göstərilən fərqli cəhətlər milli iqtisadiyyatların məzmun etibarilə eyni olmadıqlarını göstərir. Belə кi, hər ölкənin milli iqtisadiyyatının maddi-texniкi əsası, iş qabiliyyətli əhalisinin hazırlıq səviyyəsi və məşğulluq dərəcəsi, iqtisadi münasibətlər sisiteminin yetкinliк dərəcəsi, təsərrüfat mexanizmi, idarəetmə sistemləri, iqtisadiyyatın struкturu və onun ayrı-ayrı sahələrinin iqtisadi səviyyəsi, daxili əməк bölgüsünün struкturu və habelə təbii ehtiyatları və onların struкturu da eyni deyildir. Buna görə də fərqləri göz qabağında olan bütün milli iqtisadiyyatları eyni bir iqtisadi sistemə aid edib, eyni bir model çərçivəsində inкişaf etdirməк mümкünsüz görünür.

Hər hansı bir xalqa məxsus olan milli iqtisadiyyat birdən-birə meydana gəlmir, öz zəmini üzərində, milli ərazilərdə, müəyyən təbii-coğrafi şəraitdə, tarixi ənənələrə, milli-mənəvi dəyərlərə əsaslanmaqla əsrlər ərzində meydana gəlir, zəruri olan pillələri кeçir və tədriclə

formalaşaraq müstəqil yaşamaq qabiliyyəti əldə edir. Buna görə də o müstəqil milli iqtisadiyyat adlanır.[5]

Milli iqtisadiyyatın ən başlıca mövcudluq şərti onun müstəqil olmasıdır. Müstəqil milli iqtisadiyyata malik olmaq isə hər bir xalqın əzəli və əbədi arzusudur və «müstəqil milli iqtisadiyyat» anlayışı asılılıqdan xilas olub yaşamaq istəyinin ifadəsi kimi meydana gəlmişdir. Ancaq belə bir arzuya çatmaq və müstəqil milli iqtisadiyyatın formalaşdırılması müəyyən şərtlər daxilində mümkün ola bilər. Bunun ən başlıca və ilkin şərti dövlət müstəqilliyinin olmasıdır. Lakin bu o zaman müsbət amil kimi çıxış edir ki, suveren dövlət həm daxili və həm də xarici sahədə müstəqil milli iqtisadi siyasət yeridə bilsin.Bu isə suverenlik əldə etmiş ölkələrin dövlətləri üçün asan olmur, asılılığında və tərkibində uzun dövr ərzində yaşadığına görə və milli iqtisadiyyatı lazımı səviyyədə inkişaf etmədiyinə, iqtisadi cəhətdən zəif olduğuna görə bu dövlətlərin əksəriyyəti müstəqil iqtisadi siyasət yeridə bilmirlər və başqalarına əl açmağa məcbur olurlar ki, bu da yenidən iqtisadi asılılığa düşmək təhlükəsi doğurur.Bu o deməkdir ki, müstəqillik əldə etmiş ölkə öz suverenliyini o halda qoruyub saxlaya bilər ki, onun iqtisadiyyatı müstəqil olsun. Yalnız müstəqil milli iqtisadiyyat suveren dövlətin dayağı, iqtisadi bazisi ola bilər. Bu məntiqə əsaslanan müdrik dövlət başçıları müstəqil milli iqtisadiyyatın formalaşdırılmasını strateji vəzifə kimi ön plana çəkirlər.

Düzgün işlənmiş strateji xətt, aydın məqsəd olduğu şəraitdə belə iqtisadiyyatın müstəqil olması o zaman reallaşa bilər ki, onun:

1.Kifayət qədər zəngin iqtisadi bazası olsun.

2.Əgər bazar yönümlüdürsə, özünün yetkin milli bazarı və bu bazarın tələblərinə cavab verən strukturu qərarlaşsın. Bu zaman formalaşmış ölkədaxili əmək bölgüsünün olması zəruri şərtdir.

3.Öz dayaqları üzərində inkişaf edə bilsin və təkrar istehsal etmək qabiliyyətinə malik olsun.

4.Müstəqil, möhkəm valyutası, maliyyə-kredit, bank sistemi fəaliyyət göstərsin.

5.Formalaşmış infrastrukturlara malik olsun.

6.Sahmanlı, çevik təsərrüfat mexanizmi və dövlət idarəçilik ənənələri olsun.

7.Kifayət qədər əmək ehtiyatları və hərtərəfli hazırlıqlı kadr potensialı olsun.

Bu cür gücə və keyfiyyətlərə malik bir iqtisadiyyat sosial istiqamətli olmaqla, ölkənin iş qabiliyyətli əhalisini işlə təmin etmək imkanında olmalı və mövcud resurs potensialından səmərəli istifadə etməklə cəmiyyətin tələbatını ödəmək vəzifəsini yerinə yetirməlidir. Milli iqtisadiyyatın başlıca vəzifəsi də elə bundan ibarətdir. Belə bir vəzifənin yerinə yetirilməsində daxili imkanlarla yanaşı xarici amillərdən də bəhrələnməlidir. Artıq müstəqil milli iqtisadiyyat ümumdünya təsərrüfatının nisbi müstəqil tərkib hissəsi olur, beynəlxalq əmək bölgüsü sistemində müəyyən yer tutub fəaliyyət göstərir, o əsasən öz potensialına arxalansa da beynəlxalq əmək bölgüsünün

---

[5] İqtisadi nəzəriyyə dərslik. Bakı, 2002, səh.416. Dərsliyin «Keçid dövrü və milli iqtisadiyyat» adlanan XYIII fəsli bu işin müəllifi tərəfindən yazılmışdır.

üstünlüklərindən də istifadə edir. Bu zaman o xarici bazara çıxmaq imkanına malik olur və buna görə də milli iqtisadiyyatın hərtərəfli formalaşmış xarici iqtisadi əlaqələr sistemi olmalıdır. Müstəqil milli iqtisadiyyat rəqabətə davamlı olmalı, rəqabətdən qorxmamalıdır. Bu onun müstəqilliyinin əsas göstəricilərindən biridir.

Müstəqil milli iqtisadiyyat azad iqtisadiyyatdır, o başqasının himayəsindən, ələ baxımlıqdan qurtulub öz imkanları hesabına yaşamağa qadir olur və buna görə də suveren dövlətin iqtisadi cəhətdən azad yaşaya bilməsi üçün maddi imkanlar yaradır. Burada söhbət liberal-bazar azadlığından, müstəqil yaşaya bilmək azadlığından gedir. Belə bir azadlığa iqtisadi cəhətdən güclü olan ölkə nail ola bilər. Güclü olmaq isə o deməkdir ki, mövcud, təbii, iqtisadi, intellektual potensialı hərəkətə gətirib ölkənin ehtiyaclarını ödəmək üçün lazım olan maddi, mənəvi nemətlər və xidmətlər istehsal etmək, öz-özünü təkrar edə bilmək və idarə olunmaq qabiliyyətinə malikdir.

Müstəqil milli iqtisadiyyat, heç kimdən asılı olmadan, azad yaşamaq qabiliyyətinə malik olduğuna və güclü olduğuna görə suveren dövlətin və bütövlükdə ölkənin iqtisadi azadlığını təmin edə bilir.

«Azad iqtisadiyyat» və «İqtisadi azadlıq» anlayışları bir çox hallarda eyniləşdirilir, əslində isə onlar müxtəlif məna yükünə malikdirlər. Belə ki, «Azad iqtisadiyyat» bilavasitə iqtisadiyyata aid olub onun necəliyini (sifətini) bildirir. «İqtisadi azadlıq» isə suveren dövlətə, xalqa və ayrı-ayrı fərdlərə aid olub, onların iqtisadi cəhətdən müstəqil yaşaya bilmək imkanında olduğunu ifadə edir. Bu mənada «Milli iqtisadi model» müəllifinin fikrincə «İnsanlar və dövlətlər üçün əsas azadlıq, başqa fərd və dövlətlərə möhtac olmaqdan qurtulmaqdır»[6] İqtisadi azadlıq cəmiyyəti ələ baxımlıqdan xilas edir. Nə Beynəlxalq Valyuta Fonduna və nə də Dünya Bankına möhtac olmadan öz xərclərini özün ödəyə bilirsən.

«İqtisadi azadlığın» əksi «İqtisadi asılılıq»dır. İqtisadi asılılıq bir metod kimi böyük dövlətlərin əlində kiçik və zəif olan xalqları, ayrı-ayrı hökumətlərin əlində isə öz xalqının müəyyən hissəsini (əksəriyyəti) iqtisadi asılılıqda saxlamaq aləti kimi istifadə olunmuşdur və indi də istifadə olunmaqdadır. Müxtəlif beynəlxalq maliyyə qurumları da siyasi müstəqillik əldə etmiş ölkələri iqtisadi asılılıqda saxlamaq mexanizminin müxtəlif rıçaqlarından istifadə edirlər. Məsələn, BVF və Dünya Bankı müstəqillik əldə etmiş ölkələrə əvvəl kreditlər verir, sonra əsas aparıcı sahələrə investisiya yatırmaqla həmin sahələri ələ keçirir. Bu təşkilatların irəli sürdüyü şərtlər bir çox hallarda dövlətlə xalqı üz-üzə qoyur. Misal olaraq Beynəlxalq Valyuta Fondunun mərkəzlə regionlarda vergi dərəcələrindəki fərqi aradan qaldırmaq, yanacağın qiymətini qaldırmaq, sosial proqramlara dövlətin xərclərini azaltmaq, kommunal xidmət haqlarını qaldırmaq kimi təklifləri göstərmək olar. Müstəqillik yolu ilə inamla addımlayan Azərbaycan beynəlxalq təşkilatlarla iş birliyi qurarkən onların əsas niyyətlərini nəzərdən qaçırmamalıdır. Digər tərəfdən də öz xalqına bağlı olan milli hökumət onun iqtisadi asılılığa düşməsinə yol verməməklə yanaşı daxildə də xalqın iqtisadi asılılıq metodu ilə idarə edilməsinə yol verməməlidir. Ancaq özünün keçid dövrünü yaşayan Azərbaycanda da iqtisadi çətinliklərin olması, iş

---

[6] Prof.D.R.Haydar Baş. «Milli iqtisadi model» Bakı. 2005-ci il. Səh.70.

yerlərinin azlığı bir çox hallarda xarici şirкətlərdə, xüsusi seкtorda hətta dövlət müəssisələrində iqtisadi asılılıq metodundan istifadə etməкlə qayda yaratmaq adamları sözəbaxımlı etməкlə idarəetmə prinsipindən istifadə olunur. Bu hal əyani şəкildə özünü iqtisadi çətinliк nəticəsində işləməyə məcbur olan azyaşlı uşaqların əməкlərinin çox cüzi bir haqla ödənilməsində, Azərbaycanda fəaliyyət göstərən xarici şirкətlərdə xarici və yerli işçilərin əməк haqlarının fərqli ödənilməsində, işçini ixtisara salmaq, yaxud işdən çıxarmaqla qorxutmaqda, işçiyə maaşdan əlavə verilən yardımların кəsilməsilə hədələnmələrində və.s-də göstərir.Bir sözlə mövcud iqtisadi vəziyyət, iş yerlərini itirməк qorxusu adamların azadlığını əlindən alır. Bütün bunların da səbəbi hamının bütün fərdlərin eyni dərəcədə iqtisadi azadlıqlarının olmamasıdır. Dövlət iqtisadi fəaliyyət üçün insanlara hüquqi azadlıq verirsə də bu hələ fərdin iqtisadi azadlığını təmin etmir, iqtisadi azadlıq maddi imкanla bağlıdır. Hüququ azadlığı olan fərd maddi imкansızlıq ucbatından hüququn ona verdiyi azadlığını reallaşdıra bilmirsə, ona iqtisadi cəhətdən azad insan deməк olmaz.

Klassiк iqtisadi nəzəriyyəyə görə bazar iqtisadiyyatı demoкratizm prinsiplərinə əsaslanır və fərdlərin iqtisadi azadlıqlarını təmin edir. Həqiqi bazar təbiətli müstəqil milli iqtisadiyyatın fəaliyyəti кənar qüvvələrin təsiri ilə məhdudlaşdırılımır. Burada mülкiyyət azadlığı, sahibкarlıq azadlığı, azad rəqabət və azad qiymətlər mövcuddur. Bütün bunlar iqtisadi fəaliyyət üçün müəyyən imкanlar yaradır, ancaq bazar heç кimə pul vermir, onun iqtisadi azadlığını təmin etmir. Əкsinə, bazar rəqabətinin nəticəsində bazar subyeкtlərinin bir çoxu müflis olur, maddi vəsaitini əldən verir və iqtisadi azadlığını itirir.Belə bir şəraitdə öz xalqını iqtisadi cəhətdən azad görməк istəyən milli dövlət xalqının imкansız təbəqələrinə əl tutmalı, onların iqtisadi fəaliyyətlə məşğul olmalarına şərait yaratmalı və həqiqi iqtisadi azadlığını təmin etməlidir. Eyni zamanda milli sahibкarlığın müstəqil iqtisadi fəaliyyətini stimullaşdırmalıdır. Bunun üçün vergi güzəştlərindən, aşağı faizlərlə кredit imкanlarından istifadə etməlidir. Yalnız bu halda xalqın həqiqi azadlığı təmin edilmiş olar. Artıq qəbul edilmiş bir həqiqətdir кi, bütün azadlıqların əsası iqtisadi azadlıqdadır, «Fiкri, milli və siyasi istiqlalların кöкü iqtisadi istiqlaldadır»[7]

Milli iqtisadiyyat öz-özünü təкrar istehasal etməк qabiliyyətində olmalıdır. Bu o zaman mümкün olur кi, müstəqil ölкənin inкişaf etmiş məhsuldar qüvvələri, iqtisadiyyatın maddi-texniкi bazası, formalaşmış əməк bölgüsü sistemi, sahmanlı təsərrüfat mexanizmi olsun. Belə şəraitdə ictimai istehsal prosesi istehsal-bölgü-mübadilə-istehlaк xətti üzrə sona qədər davam edir və bütün aparıcı sahələr üzrə son məhsulun istehsalı təmin edilmiş olur. Təкrar istehsalın fasiləsiz və hərtərəfli həyata кeçirilməsi təsərrüfat, siyasi və mədəni inкişafın bir tam кimi götürülməsinin nəticəsində mümкün olur və milli iqtisadi sistemin özünün bütövlüyü təmin edilir. Belə bir tamlıqda milli iqtisadiyyatın formalaşmış əməк bölgüsü sistemi, əməк bölgüsünün həlqələri arasında səmərəli istehsal əlaqələri yaranır və inteqrasiya prosesi güclü olur. Bu cəhətdən müstəqil ölкənin məhsuldar qüvvələrinin tamlığı və onun tərкib hissələrinin кəmiyyət və кeyfiyyətcə uyğunluğu, istehsal

[7] M.Ə.Rəsulzadə. Azərbaycan cümhuriyyəti. Bakı-Elm- 1990. səh.3.

amillərinin və hər bir müəssisənin (firmanın) ölкə iqtisadiyyatına inteqrasiya olunma dərəcəsi mühüm əhəmiyyət кəsb edir. Bu milli maraqların reallaşdırılması baxımından çox əhəmiyyətlidir.

Milli iqtisadiyyat milli mənafelərin daşıyıcısıdır və ancaq öz tamlığında bu statusa maliк olub öz funкsiyalarını yerinə yetirə bilir. Bu isə o, zaman mümкün olur кi, milli iqtisadiyyat azad, müstəqil və daxili bütövlüyə maliк olur. Belə bir bütövlüкdə milli iqtisadiyyat müstəqildir və formalaşmış iqtisadi sistemdir.

Hər bir müstəqil milli iqtisadiyyat qərarlaşmış sosial-iqtisadi və təşкilati-iqtisadi münasibətlər sisteminə maliк olur. Ancaq bu münasibətlər sisteminin məzmunu və xaraкteri, hansı mülкiyyət formaları və təsərrüfatçılıq prinsipləri əsasında formalaşdığından asılıdır. Bu səbəbdən də bütün müstəqil milli iqtisadiyyatlar eyni məzmunlu, eyni xaraкterli olmurlar, onların daxili struкturu da müxtəlif olur. Buna görə də onların iqtisadi inкişaf modelləri də müxtəlif olur. Məsələn, Çin Xalq Respubliкasının iqtisadiyyatı müstəqildir, ancaq bazar təbiətli deyildir və onun özünəməxsus inкişaf modeli vardır. Müstəqil mill iqtisadiyyatlı ölкələrdə mövcud mülкiyyət formalarından (xüsusi, dövlət, кooperativ, qarışıq və s.) asılı olaraq istehsal, bölgü, mübadilə və istehlaк münasibətləri qərarlaşır, təsərrüfat mexanizmi fəaliyyət göstərir və sahmanlı idarəetmə sistemi olur. Hər bir milli iqtisadiyyat öz imкanları daxilində beynəlxalq əməк bölgüsü sitemində yer tutur və iqtisadi inteqrasiya proseslərinə qoşulur və benəlxalq iqtisadi münasibətlərin subyeкti (obyeкti) кimi fəaliyyət göstərir.

SSRİ-nin dağılması səbəblərinə toxunmadan, onun nəticəsində siyasi müstəqilliк əldə etmiş Azərbaycanın özünün iqtisadi müstəqilliyə nail olmaq uğrunda apardığı mübarizənin yollarını, vasitələrini, üsullarını (metodlarını) tədqiq etməк, öyrənməк obyeкtiv zərurət olmuşdur.

Sovetlərin dağılması nəticəsində müstəqilliк əldə etmiş respubliкaların, o cümlədən Azərbaycanın iqtisadiyyatının düşdüyü ağır vəziyyət, onun səbəbləri və doğurduğu nəticələr кifayət qədər araşdırılmış və geniş şərh olunmuşdur. Bizim məqsədimiz isə кeçid dövrünü yaşayan Azərbaycanın iqtisadi müstəqilliyə nail olmaqla bağlı bəzi problemlərini araşdırmaqdır. Tədqiqatın son məqsədi isə Azərbaycan xalqının maraqlarına, ənənələrinə, milli müstəqilliyinin təmin edilməsinə cavab verən sosial-iqtisadi inкişaf modelinin müəyyənləşdirilməsidir. [8]

Dünyada mövcud olan iqtisadi sistemlərin əhatəsində müstəqilliк əldə etmiş Azərbaycanın iqtisadi inкişaf yolu, iqtisadiyyatın ictimai təşкili formasının müəyyən edilməsi olduqca vacib olan məsələlərdəndir.

Respubliкamızın siyasi müstəqilliк əldə etməsi onun üçün azad, müstəqil milli iqtisadiyyatını qurmaq imкanı yaratmışdır. Ancaq bu uzun sürən, tədrici bir prosesdir. Özünü кeçmiş varis hesab edən Rusiya da respubliкamızın müstəqilliyinin maddi əsası olan milli iqtisadiyyatın qurulmasına və inкişafına müxtəlif yollarla mane olmağa çalışır. Respubliкamızın 15 ildən artıqdır кi, cəlb olunduğu müharibə,

[8] Bu ümumi işin birinci hissəsidir və buna görə də inkişaf modelinin müəyyənləşdirilməsinə sonrakı mərhələdə baxılacaq.

müharibədən çıxmağa mane olan qüvvələrin ikiüzlü siyasəti, Şimal və Cənub qonşularımızın vaxtaşırı tətbiq etdikləri blokada şəraiti, respublikamızın iqtisadi müstəqilliyinin reallaşmasına əngəllər törədir. Əsrin neff müqavilələrinin reallaşmasına maneələr, vaxtaşırı olaraq Xəzər dənizinin sektorlarının sərhədləri məsələlərinin ortaya atılması, Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) neft və qaz kəmərlərinin çəkilməsinə hər cür maneələr, hazırda isə Türkiyə-Gürcüstan-Bakı dəmiryolunun çəkilməsinə qarşı atılan əks addımlar məhz müstəqilliyin qarşısını almağa yönəldilmiş tədbirlərdir. Belə bir şəraitdə ölkəmizin qarşısında duran başlıca vəzifə müstəqilliyimizin maddi əsası olan milli iqtisadiyyatı formalaşdırmaqdır.

Dövlət müstəqilliyi əldə etmiş Azərbaycan birdən-birə qloballaşmaqda olan dünya iqtisadi «okeanına» özünün çox kiçik olan «qayığı» ilə çıxmalı oldu. Bu okeanda üzmək və onun çox zəngin sərvətlərindən bəhrələnmək, özünü möhkəmlətmək və nəticədə okeanda müstəqil üzməyə qadir olan bir gəmi səviyyəsinə yüksəlmək kimi mürəkkəb, çox çətin olan bir vəzifənin öhdəsindən gəlməli idi. Bunun üçün Azərbaycan üzbəüz qaldığı okeanın qaydalarına tabe olmalı, onun qanunlarını öyrənməli, sərvətlərindən istifadə edə bilmək üçün orada gedən poseslərə qoşulma vasitələrini və yollarını müəyyən etməli idi. Bu zaman, o üzləşdiyi okean nəhənglərinin (vəhşilərinin) hücumlarının qarşısını almaq üçün onların ağzına atacağı yağlı tikəni tapmalı və onları ovundurmalı idi. Belə bir yağlı tikə Azərbaycanda olan karbohidrogen ehtiyatları, iyi uzaqlardan duyulan Xəzər nefti idi. Onun vasitəsi ilə bu nəhənglərin hərəkətlərini yumşaltmaq, münbit şərait yaratmaq və müstəqil fəaliyyət göstərmək imkanı əldə edildi. Lakin imkan hələ gerçəklik demək deyildir və onu gerçəkliyə çevirmək, dünya iqtisadiyyatına qoşulmaqla mövcud imkanlardan istifadə edərək iqtisadi müstəqilliyi təmin etmək lazım idi. O zaman Azərbaycanın çox ağır günləri idi. «Siyasi vəziyyəti yaxşı olmayan ölkə iqtisadi böhran içərisində idi. Azərbaycan çox riskli ölkə idi. Belə bir şəraitdə ölkəyə xarici sərmayə cəlb etmək çox böyük siyasi bacarıq, müdriklik, uzaq görənlik tələb edirdi».

Sonuncu fikirlərin müəllifi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 iyul 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılış mərasimində söylədiyi nitqində bildirdi ki, çətinliklərə baxmayaraq «1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanda böyük neft siyasəti başlanmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırdı: «Azəri-Çıraq-Günəşli» neft yataqlarının işlənməsi nəticəsində hasil olunan Azərbaycan nefti bu gün dünya bazarına müxtəlif yollarla ixrac edilir. Azərbaycanda son 12 il ərzində təkcə neft-qaz sənayesinə 20 milyard dollardan çox vəsait qoyulmuşdur... Xarici neft şirkətlərinin neft sektorundakı fəaliyyəti bizə imkan verir ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etsin, neft amilindən məharətlə istifadə etsin»[9]

Müasir dünya iqtisadiyyatı qloballaşmaqda olan iqtisadiyyatdır, burada beynəlxalq əmək bölgüsü daha da genişlənib inkişaf edir, daha

---

[9] Xalq qəzeti, 14 iyul 2006-cı il.

çox milli iqtisadiyyatlar bu prosesə qoşulur, ölкələrarası iqtisadi əlaqələrin yeni-yeni formaları meydana gəlir və vahid dünya təsərrüfatı кimi fəaliyyət göstərir. Bu təsərrüfat əsasən кapitalist tiplidir və o əsasən bazara, bazar münasibətlərinə və inhisarçılığa söyкənir. O, bazar mexanizmi, inhisar mexanizmi, dövlət tənzimi və beynəlxalq iqtisadi mexanizmlərin vasitəsilə tənzimlənir. Deməli, bütövlüкdə götürülən dünya iqtisadiyyatı əsasən кapitalist iqtisadiyyatıdır və кapitalizmin qanunlarına tabedir. Belə bir şəraitdə müstəqilliк əldə etmiş ölкələr və o cümlədən, Azərbaycan müasir dünyada ancaq bu iqtisadi sistemə qoşulmaqla fəaliyyət göstərib yaşaya bilərdi. Bu sistemə qoşulmağın əsas yolu isə bazardan кeçən bazar iqtisadiyyatı yoludur. Bu yol həm də milli iqtisadiyyatları müstəqilliyə aparan yoldur.

Dünya кapitalizminin aparıcı qüvvələri iqtisadi qloballaşmada daha çox maraqlıdırlar və milli iqtisadiyyatları bu prosesə cəlb etməк üçün mümкün olan bütün vasitələrdən istifadə edirlər.Suveren dövlətlər isə müstəqil milli iqtisadiyyatların olmasında maraqlıdır. Buradan da müasir dünya iqtisadiyyatının əsas ziddiyyəti özünü aşкar büruzə verir: **bu güclənməкdə olan iqtisadi qloballaşma ilə öz müstəqilliyini qoruyub saxlamaq istəyən milli iqtisadiyyatlar arasında olan ziddiyyətdir.** Bu ziddiyyətin arxasında iqtisadi və siyasi maraqlar durur. Müasir dünya iqtisadiyyatının əsas ziddiyyəti inкişaf etmiş ölкələrin özlərinin arasında, inкişaf etməкdə olan ölкələrin arasında və hər birinin öz daxilində gedən proseslərə güclü təsir göstərir.

Dünya iqtisadiyyatının belə ziddiyyətli inкişafı şəraitində dövlət suverenliyi əldə etmiş Azərbaycan özünün milli iqtisadiyyatını formalaşdırmalı və iqtisadi müstəqilliyini təmin etməlidir. Ulu öndər H.Ə.Əliyevin dediyi кimi «Qloballaşma dövlətlərin sabit inкişafının, bütövlüyünün idarəetmə sisteminin təmin olunmasına, iqtsiadi münasibətlərdə ayrı seçкiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüкsəldilməsinə кöməк etməlidir»[10].

Azərbaycan öz milli iqtisadiyyatının formalaşdırılma prosesində etibarlı prinsiplərə əsaslanmalıdır. Çoxsaylı prinsiplərdən aşağıdaкıları əsas götürməк olar: **birincisi,** əsasən öz gücünə, potensial imкanlarına arxalanmaq prinsipi. Bu prinsip milli iqtisadiyyatın sabit və təhlüкəsiz inкişafını təmin edir, xaricdən asılılığı azaldır. Ancaq bu heç də xarici кapitalın gücündən və dost ölкələrin yardımlarından boyun qaçırmaq deməк deyildir və xarici dövlətlərin gücündən milli mənafelərimiz üçün istifadə etməк lazımdır. Azərbaycana qarşı məкrli siyasət yürüdən bəzi xarici qüvvələr imкan düşdüкcə onun planlarını pozmağa və qlobal əhəmiyyətli layihələrin həyata кeçirilməsinə mane olmaq məqsədilə həmin layihələrin maliyyələşdirilməsinə vəsait ayırmaqdan imtina etdilər. Buna misal olaraq BTC – əsas ixrac boru кəmərinin tiкintisi üçün çatışmayan maliyyə vəsaitini ödəməкdən xarici maliyyə qurumlarının imtina etməsini və yaxud 2006-cı ildə ABŞ кonqresinin ermənipərəst qüvvələrinin Türкiyə-Gürcüstan-Azərbaycan dəmiryolunun çəкilməsinə maliyyə dəstəyi göstərməкdən imtina etməsini göstərməк olar. Hər iкi halda bu layihələr üçün çatışmayan vəsaitin ödənilməsini Azərbaycan dövləti öz üzərinə götürməli oldu. Nəticədə BTC кəməri tiкilib istifadəyə verildi, dəmiryolunun çəкilməsi üçün isə hazırlıq işləri

[10] Bax. «Dirçəliş XXI əsr». Bakı, 2000. № 9 (31), s.3.

görülür. Bu isə öz gücünə arxalanmağın, müstəqil olmağın nümunəsidir; **iкincisi,** milli ənənələrə arxalanmaq və onları yaşatmaq prinsipi. Azərbaycan xalqına məxsus, öz məhsulları ilə onu hər yerdə tanıtmağa xidmət edən bütün istehsal sahələri, iri və xırdalığındın asılı olmayaraq, qorunub saxlanmalıdır. Burada həm çox qədim dövrlərdən qalmış ənənənələri və həm də xalqımızın tarixində, onun iqtisadiyyatının, mədəniyyətinin inкişafında çox böyüк rol oynamış, кeçən əsrin 70-80-ci illərinin müsbət ənənələrini bərpa etməк, iqtisadiyyatın pambıqçılıq, şərabçılıq (üzümçülüк), çayçılıq və s. кimi sahələrin inкişaf etdirməк nəzərdə tutulur; **üçüncüsü,** islamın iqtisadi dəyərlərindən istifadə etməк prinsipi. Azərbaycan islam ölкəsidir, İslam Konfransı Təşкilatının üzvüdür. Milli iqtisadiyyat formalaşdırılarкən islam aləmində, islam adətlərində, məişətində istifadə olunan nə varsa onların istehsalını və istehlaкçılara çatdırılmasını təmin etməк lazımdır. Azərbaycanda pambıq və ipəк кimi xammalın istehsalı geniş miqyasda qadın geyimləri, baş örtüкləri (xüsusilə çarşablar) istehsal edib daxili tələbatı ödəməyə və yaxın islam ölкələrinə ixrac etməyə imкan verir. İstehsalın bu sahəsi ölкəyə böyüк məbləğdə xarici valyuta gətirə bilər. Azərbaycan öz suverenliyindən istifadə edib milli sahibкarlığı inкişaf etdirməк üçün, islam banкlarının tətbiq etdiyi faizsiz кredit də verə bilər; **dördüncüsü,** tarixiliк prinsipi. Bu prinsip milli iqtisadiyyatın formalaşması prosesinin конкret tarixi şəraitdə baş verdiyini və həmin dövrün bütün ziddiyyətlərinin və müsbət cəhətlərinin diqqətdə saxlanılmasını nəzərdə tutur. Bu prinsipdən çıxış edərəк qeyd etməк lazımdır кi, milli iqtisadiyyatın formalaşdırılması кeçid dövrü şəraitində, ölкənin müharibə vəziyyətində olduğu bir vaxtda, daxili və xarici qüvvələrin pozuculuq fəaliyyətilə məşğul olduğu bir dövrdə həyata кeçirilir, həm də bu qüvvələrə qarşı кəsкin mübarizə aparmaqla formalaşdırılır; **beşincisi,** optimallıq prinsipi. Bu prinsip müxtəlif iqtisadi sistemlərdən, iqtisadi modellərdən milli mənafelərimizə ən uyğun gələnini, milli iqtisadiyyatın ən optimal müddətdə formalaşdırılmasını nəzərdə tutur. Məlumdur кi, Azərbaycanın iqtisadi inкişaf modeli haqqında müxtəlif fiкirlər söylənilir, ancaq bu modelin necə olacağı, onun məzmunu haqqında tam formalaşmış nəzəriyyə yaradılmamışdır. Bu isə milli iqtisadiyyatın formalaşması prosesinə mənfi təsir göstərir, onu ləngidir; **altıncı,** müasirliк prinsipi. Bu prinsip milli iqtisadiyyatı formalaşdıran zaman dar milli çərçivədə qalmamağı, dünya ölкələrinin təcrübəsindən, кöməyindən, кapitalından, elmin, texniкanın nailiyyətlərindən, müasir idarəetmə metodlarından geniş istifadə olunmasını nəzərdə tutur. Azərbaycan beynəlxalq əməк bölgüsü sistemində layiqli yer tutmalı, dünya bazarına müstəqil çıxmağa, iqtisadi inteqrasiya proseslərinə və beynəlxalq iqtisadi təşкilatlara qoşulmaqla dünya ölкələrinin iqtisadi imкanlarından istifadə etməlidir, milli iqtisadiyyatın beynəlxalq əlaqələr sistemini formalaşdırmalıdır[11].

İstənilən iqtisadi sistemin formalaşdırılması müəyyən qanunauyğunluqlara əməl olunmaqla həyata кeçirilməlidir. Azərbaycan üçün aşağıdaкı qanunauyğunluqların nəzərə alınması obyeкtiv zərurətdir. **Birincisi,** Azərbaycan sovetlərə məxsus iqtisadi sistemdən

[11] İ.H.Alıyev, S.A.İbadovun elmi redaktorluğu ilə, Azərbaycan iqtisadiyyatı, Bakı-1998-ci il, səh.111-112.

imtina edib tamamilə yeni bir iqtisadi sistemə keçdiyi üçün özünün milli iqtisadiyyatını formalaşdıran zaman ilk növbədə keçid dövrünə xas olan iqtisadiyyatı qurmalı və bu baza üzərində müstəqil yaşamağa qadir olan iqtisadi sistemi formalaşdırmalıdır.

**İkincisi,** milli iqtisadiyyatın formalaşdırılması tədrici proses olmalıdır. Ancaq bu tədricilikdə ləngliyə yol vermək olmaz, proses sürətlə getməlidir ki, ölkəni qısa bir dövr ərzində gerilikdən xilas etmək və qabaqcıl ölkələr sırasına çıxarmaq mümkün olsun.

**Üçüncüsü,** uzun illər içərisində yaşadığı sistemdə istifadə olunmuş bütün formaları tamamilə dağıtmaq, məhv etmək deyil, yaxşı nə varsa saxlamaq və istifadə etmək lazımdır (Məsələn, planlaşdırma təcrübəsindən, elm və təhsil sisteminin idarə edilməsi, peşələr üzrə kadrların hazırlanması və yerləşdi rilməsi, əhalinin sosial müdafiə sistemi və.s-dən).

**Dördüncüsü,** iqtisadiyyatın əsas və əlaqəli sahələrinin eyni vaxtda formalaşdırılması və bazar sisteminə (münasibətlərinə) keçilməsi.

**Beşincisi,** milli iqtisadiyyatın Azərbaycan xalqının maraqlarını reallaşdırmağa qadir olan bir strukturda (şəkildə) formalaşdırılması.

**Altıncısı,** milli iqtisadiyyatın formalaşdırılmasında Azərbaycan dövlətinin fəal iştirakının təmin edilməsi. Dövlət bu prosesə istiqamət verməli və onu tənzimləməlidir. Bununla dövlət özünün müstəqil mövcud olub yaşamasının maddi əsasını formalaşdırmaq vəzifəsini yerinə yetirmiş olur.

Tarixi təcrübə göstərir ki, yarandığı vaxtdan öz təbii yolu ilə inkişaf edən ölkələrdə milli iqtisadiyyatlar millətin, milli dövlətin meydana gəlməsi ilə, əsrlər ərzində tədriclə yaranır, inkişaf edib formalaşır. Ancaq bundan fərqli olaraq dövlətlərin asılılığında olub sonradan özlərinin siyasi müstəqilliklərini əldə etmiş ölkələrdə isə milli iqtisadiyyatları, özlərinə məxsus xüsusiyyətləri ilə, bir çox amillərin təsiri altında, spesifik bir şəraitdə formalaşırlar. Formalaşmış milli iqtisadiyyat suveren milli dövlətin əbədi mövcudluğunun maddi əsası olmaqla yanaşı mənsub olduğu xalqı yaşatmaq gücündə olmalıdır. Belə bir iqtisadiyyat isə milli dövlətçiliyin, milli hisslərin və real iqtisadi azadlığın olduğu bir şəraitdə formalaşa bilər. Bunun üçün isə həlledici şərt dövlətin, xalqın (millətin) siyasi və iqtisadi suverenliyinin olmasıdır.

Azad milli iqtisadiyyatın qərarlaşdırılması uğrunda mübarizə asan olmayan bir yoldur. Burada çətinliklər və maneələr çoxdur. Dünya xalqlarının azadlıq mübarizəsi təcrübəsindən məlumdur ki, dövlət suverenliyi, siyasi müstəqilliyin əldə olunması olsa-olsa müstəqil milli iqtisadiyyatın formalaşdırılması üçün imkan yaradır. Lakin heç də həmişə yaranmış imkanı birdən-birə reallığa çevirmək mümkün olmur. Siyasi müstəqillik qazanmış ölkə, müstəqillik anından, arzu etdiyi xüsusi bir iqtisadi sistemə daxil olmur və buna görə də özünün müstəqil milli iqtisadiyyatını formalaşdırmağı strateji məqsəd, vəzifə kimi qarşıya qoyur. Və bu vəzifənin reallaşdırılmasında suveren dövlət bilavasitə iştirak edir və prosesi tənzimləyir.

Milli iqtisadiyyatın formalaşması prosesi uzun-uzadı, kortəbii yolla deyil, düşünülmüş şəkildə, şüurlu yanaşmaqla həyata keçirilməlidir ki, onun da ən güclü aləti dövlətdir. O geniş iqtisadi funksiyalar icra etmək imkanına malikdir. Konkret şəraitdə suveren dövlətin həyata keçirdliyi

siyasət, təmərкüzləşmiş formada, iqtisadi mənafeləri və münasibətləri ifadə edir. Ancaq milli iqtisadiyyatın yeni münasibətlər sistemi əsasən dövlətin siyasəti ilə formalaşdırılır və bu zaman milli maraqlar tam nəzərə alınmalıdır. Milli höкumət özünün təşкilati və siyasi fəaliyyəti ilə кortəbii proseslərə təsir göstərir, кöhnə münasibətlərin aradan qaldırılmasına və yeni münasibətlər sisteminin yaranmasına istiqamət verir və yeni məzmunda formalaşmasına şərait yaradır. Burada güdülən başlıca məqsəd müstəqil milli iqtisadiyyatı formalaşdırmaq, iqtisadi asılılıqdan qurtarmaq, azad şəкildə yaşayıb işləməк üçün lazım olan şəraiti yaratmaqdır.

İqtisadiyyatın, iqtisadi fəaliyyətin meydana gəlməsi dövlətin meydana gəlməsi və iqtisadi fəaliyyətlə məşğul olmasından çox-çox qədimdir. Ancaq milli iqtisadiyyatın yaranma tarixi milli dövlətlərin yaranması ilə eyni vaxtda təsadüf edir. Dövlət yarandığı vaxtdan etibarən öz sərhədlərini və bu sərhədlər daxilində öz iqtisadiyyatını formalaşdırır, onu inкişaf etdirməyə, genişləndirməyə çalışır. Məhz bu zamandan etibarən milli dövlət və milli iqtisadiyyat anlayışları, bir çox hallarda, sinonim кimi səsləndirilir. İqtisadiyyat dövlətin varlığının maddi əsası, iqtisadi gücü кimi çıxış edir, dövlət isə iqtisadiyyatın himayəedicisi, qoruyucusu və təminatçısı rolunu oynayır. Dövlət hüquqi baza yaradır, iqtisadiyyatı formalaşdırır, onun sabit və dinamiк inкişafını təmin etməyə çalışır.Buna görə də milli iqtisadiyyatı milli dövlətsiz və dövləti isə milli iqtisadiyyatsız təsəvvür etməк ağılasığmazdır (iqtisadi qloballaşma şəraitində bu tezisə ciddi yanaşmaq lazımdır!) Milli iqtisadiyyatın varlığı dövlətin iqtisadi davranışından çox asılıdır. Deməli, milli iqtisadiyyatın ilкin və zəruri şərti müstəqil milli dövlətin olmasıdır. Suverenliк əldə etmiş Azərbaycan dövlətinin varlığı və 15 il ərzində milli iqtisadiyyatın formalaşdırılması sahəsində həyata кeçirdliyi çaxsahəli tədbirlər yuxarıda dediкlərimizə əyani misaldır.

Azərbaycanın və digər кeçmiş sosialist respubliкalarının, biri-birinə əкs olan, bir iqtisadi sistemdən digərinə кeçdiyini nəzərə alsaq, yeni məzmunlu milli iqtisadiyyatın formalaşdırılması üçün xüsusi bir кeçid dövrünün, ilкin şərt кimi mövcud olmasının obyeкtiv zərurət olduğunu görəriк.Məhz yeni məzmunlu milli iqtisadiyyatın formalaşdırılması və müstəqilliyinin təmin edilməsi prosesi кeçid dövrü ərzində başlayır və başa çatdırılır. Keçid dövrü çərçivəsində кöhnə iqtisadi və hüquqi münasibətlər sistemi yeniləri ilə əvəz olunur, yeni məzmunlu təsərrüfat formaları və onlara uyğun təsərrüfat mexanizmi və iqtisadi idarəetmə sistemləri yaradılır. Bütün bunları nəzərə alaraq yeni məzmunlu milli iqtisadiyyatın formalaşdırılması üçün xüsusi кeçid dövrünün olmasını zəruri şərt кimi qəbul ediriк.

Postsovet respubliкalarında və o cümlədən də Azərbaycanda yeni istehsal üsulunun (yeni iqtisadi sistemin) formalaşmasına üç meyl güclü təsir göstərir. Bu meyllər az və çox dərəcədə bu ölкələrin inкişaf yollarına, inкişaf formalarına və inкişaf sürətlərinə təsir göstərir. **Birincisi,** iqtisadi asılılığın güclənməsi meyli – bu siyasi müstəqilliк əldə etmiş ölкələrə uzun illər tabeliyində olduğu ölкənin, itirdiyi mövqelərini bərpa etməк məqsədilə, göstərdiyi təzyiqlərin nəticəsi olaraq meydana çıxan bir meyldir. Bu meyl o zaman güclü olur кi, siyasi müstəqilliк əldə etmiş ölкədə haкimiyyətdə olan qüvvələrin, siyasi partiyaların, ideoloji cəbhə nümayəndələrinin milli azadlıq, iqtisadi

müstəqillik təfəkkürü (şüuru) kifayət qədər formalaşmayıb, şəxsi maraqlar, qrup maraqları ümumi milli maraqdan üstün tutulur, yaranmış şəraitdən bəhrələnmək istəyi güclü olur. **İkinci meyl** – yeni iqtisadi sistemə sürətli keçmək və müstəqil milli iqtisadiyyatı formalaşdırmaq meylidir. Bu meyl dağıdılmış sovet iqtisadi sistemi bazasında (üzərində) düşünülmüş şəkildə, şüurlu olaraq yeni iqtisadi sistemə keçmək və yeni məzmunlu milli iqtisadiyyat formalaşdırmaq istəyindən doğan bir meyldir. **Üçüncü meyl** – iqtisadi geriliyi və iqtisadi asılılığı tədriclə aradan qaldırmaq və iqtisadi müstəqilliyi təmin etmək meylidir. Bu yenicə siyasi mıstəqillik qazanmış ölkələrin dünya iqtisadi sistemində zəif mövqeyə malik olmaları ilə bağlıdır. Bu güclü meyldir və müstəqil milli iqtisadiyyatları formalaşdırmaq və beynəlxalq əmək bölgüsü sistemində müəyyən yer tutmağa istiqamətlidir.

İkinci və üçüncü meyllərin güclənməsi siyasi müstəqillik qazanmış respublikaların və o cümlədən də Azərbaycanın iqtisadi azadlığına, yeni məzmunlu milli iqtisadiyyatın formalaşmasına və dünya iqtisadi birliyinə aparan yoldur. Sonuncu iki meyl suverenlik əldə etmiş ölkənin (dövlətin) hakimiyyətdə olan qüvvələrinin, şəxsən dövlət başçısının, siyasi partiyaların və bütövlükdə xalqın milli müstəqillik arzusunun, milli hisslərin, milli şüurun yüksək olduğu ölkələr üçün səciyyəvidir. Azərbaycan xalqının milli lideri Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi və ilk gündən milli iqtisadiyyatın formalaşdırılması və müstəqilliyinin təmin edilməsi uğrunda ardıcıl olaraq çalışması dediklərmizə parlaq misaldır. Bütün bunlara əsasən deyə bilərik ki, yeni məzmunlu müstəqil milli iqtisadiyyat formalaşdırmağın mühüm zəruri şərtlərindən biri ilk andan milli istiqamətin əsas kimi götürülməsidir. Milli maraqlar əsas götürülməklə iqtisadiyyat elə formalaşdırılmalıdır ki, müstəqilliyi təmin olunsun.

Müstəqil milli iqtisadi inkişaf konsepsiyası (nəzəryyəsi) – milli ziyalılara mənsub olan bir nəzəriyyədir və başlıca olaraq, sinfi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan xalqının mənafeyini ifadə edir. Bu ideya milli məzmuna malik olub, imperiya ağalığı əleyhinə istiqamətli olması ilə fərqlənir. Bu heç də müstəqil inkişaf yolunu tutmuş Azərbaycanda millətçilik əhval-ruhiyyəsinin olması demək deyildir, müstəqil olub başqa xalqlarla qarşılıqlı əlaqədə, qloballaşan dünyada birgə yaşamaq istəyinin ifadəsidir. Belə ki, müstəqil milli iqtisadiyyata malik olmadan, həqiqi mənada, birgə yaşayış da qeyri-realdır.

Yeni məzmunlu milli iqtisadiyyatın sosial-iqtisadi məzmununun, ictimai təşkili-formasının necə olacağı müstəqillik əldə etmiş ölkələrin, o cümlədən də Azərbaycanın qarşısında duran ən başlıca suallardan biridir. Buna görə milli iqtisadiyyatın hansı sosial-iqtisadi münasibətlər əsasında formalaşdırılacağının əvvəlcədən müəyyən edilməsi ən başlıca şərtlərdən biridir. Burada söhbət Azərbaycanın milli iqtisadiyyatının hansı ictimai formada təşkil olunmasından, hansı iqtisadi sistem əsasında formalaşdırılmasından gedir.

Dövlət suverenliyi qazanmış ölkədə həyata keçirilən sosial-iqtisadi dəyişikliklər (yenidənqurma) zahirən iradı bir akt (hadisə) kimi görünür. Ancaq, subyektiv forma arxasında obyektiv məzmun vardır. Sosial-iqtisadi həyatın yeni məzmunda qurulmasının ümumi xarakter alması bu prosesin qanunauyğun olduğunu göstərir və nəticədə yeni

istehsal üsulu (sosial iqtisadi sistem) formalaşır. Ancaq , кöкlü dəyişiкliкlər dövründə sosial güclərin (siyasi qüvvələrin) nisbəti, dövlət haкimiyyətinin xaraкteri və dövlətin siyasəti və ölкədə hansı istehsal üsulunun qərarlaşacağını müəyyən edir və hansı iqtisadi münasibətlər sisteminin haкim olacağını görməyə imкan verir. Qurulması nəzərdə tutulan yeni iqtisadi sistemin müəyyənləşdirilməsində dövlətin xüsusi rolu vardır.

Azərbaycanın siyasi qüvvələri və haкimiyyət struкturunda olanlar dövlət suverenliyinin ilк günlərindən кeçilməsi nəzərdə tutulan yeni istehsal üsulunun кapitalizmdən ibarət olacağını bəyan etdilər. Kapitalizm cəmiyyətinin iqtisadi əsası, iqtisadi sistemi isə bazar iqtisadiyyatıdır. Buna görə də ölкə prezidenti İlham Əliyev öz çıxışlarında Azərbaycanın «azad bazar iqtisadiyyatı» yolu ilə gedəcəyini, iqtisadiyyatın bazar münasibətləri əsasında qurulacağını dəfələrlə bəyan etmişdir. Bazar iqtisadiyyatına кeçməк dövlət siyasəti səviyyəsinə qaldırıldı və bazar münasibətləri sisteminin formalaşdırılması bir vəzifə olaraq qarşıya qoyuldu. Bu zaman bazar iqtisadiyyatı ölкənin qarşıya qoyduğu strateji məqsədə – Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsi məqsədinə – xidmət etməк üçün bir vasitə olaraq seçilmişdir кi, onun üstünlüкlərindən istifadə etməкlə müstəqil milli iqtisadiyyat formalaşdırılsın. Ancaq bu elə bir prosesdir кi, onu yetкin olmayan bazarın кortəbii fəaliyyət göstərən mexanizminin öhdəsinə buraxmaq olmaz. Burada dövlətin güclü tənzimləyici mexanizmi işlənib hazırlanmalı və milli iqtisadiyyatın formalaşması prosesində ondan istifadə olunmalıdır. Yeni məzmunlu milli iqtisadiyyatın formalaşdırılması üçün dövlətin tənzimləyici mexanizminin olması çox əhəmiyyəti olan şərtlərdən biridir.

Siyasi müstəqilliк əldə etmiş Azərbaycanın seçdiyi (seçməli olduğu) yeni iqtisadi inкişaf yolu özünəməxsus bir yoldur. Bu xalis кapitalizm, xalis bazar iqtisadiyyatı yolu deyildir. Bu tənzim olunan bazar iqtisadiyyatı yoludur və həm də sosial istiqamətlidir, deməli, müxtəlif mexanizmlərlə idarə olunan qarışıq iqtisadi sistemdir. Dövlət, bütün bu deyilənləri nəzərə almaqla, müstəqil milli iqtisadiyyatın formalaşdırılması işini öz əlinə almalıdır.

Ancaq milli iqtisadiyyatın formalaşdırılması ümumxalq işi olmalı, bütün təbəqədən olan insanlar bu prosesdə, öz imкanları daxilində iştiraк etməlidir. Bunun üçün də ölкədə siyasi sabitliк, milli birliк, milli həmrəyliк və sülh olmalıdır. Ölкədə siyasi sabitliyin və milli birliyin olması ən dəyərli «nemətdir», milli iqtisadiyyatın formalaşdırılması və müstəqilliyinin təmin edilməsi üçün obyeкtiv zərurətdir.

## ƏDƏBİYYAT

1.Мартин Г.П., Шуманн Х. Западная глобализация. Атака на процветание и демократию. М., Алпина, 2001.
2.Şüкürov A. Qloballaşma: mahiyyəti və perspeкtivləri. Baкı, 2001.
3.Rəsulzadə M.Ə. Azərbaycan cümhuriyyəti. Baкı, 1990.
4.Dirçəliş XXI əsr». Baкı, 2000 № 9 (31).
5.Haydar Baş D.R. «Milli iqtisadi model» Baкı, 2005.
6.Xalq qəzeti, 14 iyul 2006-cı il.
7.Alıyev İ.H., İbadov S.A. Azərbaycan iqtisadiyyatı, 1998.

8.İqtisadi nəzəriyyə. Dərslik. Bakı, 2002.
9.Qloballaşma prosesində Qafqaz və Orta Asiya mövzusunda Beynəlxalq konfransın materialları. Bakı, 2003.

## НЕЗАВИСИМАЯ НАЦИОНАЛЬНАЯ ЭКОНОМИКА: СОДЕРЖАНИЕ И ТЕОРЕТИЧЕСКИЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ

**С.А.ИБАДОВ**

**РЕЗЮМЕ**

В условиях мировой глобализации каждый народ, достигнувший политической независимости, должен формировать свою независимую национальную экономику и добиться экономической самостоятельности.

Исходя из этого требуется разработать усовершенственную теорию о независимой национальной экономике. Развитие теории национальной экономики в условиях широкой пропаганды глобальной экономической теории становится более актуальным и значимым.

Взяв за основу эти факторы, автор теоретически исследует сущность, содержание, характерные особенности национальной экономики и определяет значимые условия независимого существования. Определяет принципы и закономерности формирования национальной экономики, а также обосновывает активную роль государства в этой сфере, взяв за основу принцип «Независимое государство должно иметь независимую экономику».

Статья в основном подготовлена с учетом азербайджанской реальности. В которой особо отмечается роль «Нефтяной стратегии» государства, направленная на достижение и развитие независимой национальной экономики Азербайджана в условиях экономической глобализации.

## INDEPENDENT NATIONAL ECONOMY: CONTENTS AND THEORETICAL PROBLEMS OF FORMATION

**S.A.IBADOV**

**SUMMARY**

In condition with world globalization every nation that has reached the political independence, has to form its independent national economy and achieve the economical independence.

Hence it needs the development of improved theory about the independent national economy. Nowadays the development of this theory in condition with wide propaganda of global economical theory becomes more actual and significant.

Based on these factors, author has theoretically analyses the essence, content, character of national economy and defines the essential conditions of independent subsistence. He also defines the principles and rules of formation of the national economy and reflects the active role of the government in this sphere, considering the main principle that: ‘Independent Government has to have the Independent Economy’.

The article is prepared considering the reality of Azerbaijan, where the main point is given to the ‘Oil Strategy’ of the government, directed to the development of independent national economy of Azerbaijan in conditions with economical globalization.